UOT 159.9

***Mənsur Sərdar oğlu Xaspoladov***
*"Viqas" psixoloji və nitq inkişaf mərkəzinin psixoloqu*

# PRAKTİK PSİXOLOGİYA: MÖVCUD ÇƏTİNLİKLƏR

***Мансур Сардар оглы Хасполадов***
*психолог Центра психологического и речевого развития «Вигас»*

# ПРАКТИЧЕСКАЯ ПСИХОЛОГИЯ: СУЩЕСТВУЮЩИЕ ТРУДНОСТИ

***Mansur Sardar Haspoladov***
*psychologist of the Center for psychological and speech development "Vigas"*

# PRACTICAL PSYCHOLOGY: EXISTING CHALLENGES

**Xülasə**. Məqalədə psixoloqun vəzifə və öhdəliklərinin anlamasına yönəlik araşdırmalardan bəhs olunur. Araşdırmalardan məlum olan problem və çətinliklərə nəzər saldıqda məlum olur ki, günümüzdə sosial psixologiyada böhran mövcuddur. Sübut olundu ki, sosial psixologiya cəmiyyət tərəfindən düzgün qiymətləndirilmir, gənc psixoloqlar vəzifə və öhdəliklərinin tam mənimsəməyiblər. Məktəblərdə psixoloq otağı yoxdur və ya müasir tələblərə cavab vermir, məktəb psixoloqu özünü vəzifəsinə tam hazır hiss etmir, valideyn psixoloqa güvənmir, şagird psixoloqu tanımır, psixoloq məktəbdə təlim və seminarlar təşkil edə bilmir, qəbul prosesində psixoloqlar üçün əlavə qabiliyyət imtahanı tələb olunmur. Sadalanan problemlər günümüzdə cəmiyyətdə ağır fəsadlarla sonlanır.
***Açar sözlər:*** *praktik psixoloq, müəllim, şagird, valideyn, psixologiya*

**Резюме.** В статье рассматриваются исследования, направленные на понимание обязанностей и ответственности психолога. При рассмотрении проблем и трудностей, выявленных из исследований, становится ясно, что на сегодняшний день в социальной психологии наблюдается кризис. Доказано, что социальная психология не ценится обществом должным образом, а молодые психологи не в полной мере усвоили свои обязанности и ответственность. В школах нет кабинета психолога или он не отвечает современным требованиям, школьный психолог не чувствует себя полностью подготовленным к своим обязанностям, родитель не доверяет психологу, ученик не знает психолога, психолог не может организовать тренинги и семинары в школе. Все эти проблемы приводят к серьезным трудностям в современном обществе.
***Ключевые слова:*** *практический психолог, учитель, ученик, родитель, психология*

**Summary.** The article examines research aimed at understanding the duties and responsibilities of a psychologist. When considering the problems and difficulties identified from the research, it becomes clear that today there is a crisis in social psychology. It has been proven that social psychology is not properly valued by society, and young psychologists have not fully mastered their duties and responsibilities. There is no psychologist's office in schools or it does not meet modern requirements, the school psychologist does not feel fully prepared for his duties, the parent does not trust the psychologist, the student does not know the psychologist, the psychologist cannot organize trainings and seminars at school. All these problems lead to serious difficulties in modern society.
**Keywords:** *practical psychologist, teacher, student, parent, psychology*

Günümüzdə çox aktual olan mövzulardan biri də cəmiyyət və psixoloq münasibətləridir. Bu dəfə biz praktik psixologiya, mövcud problemlər və çətinliklərdən söz açacağıq. Praktik psixoloq məktəbdə və cəmiyyətdə hansı mövqe tutub və hansı öhdəlikləri vardır? Bu sualın cavabı təqdim etdiyimiz mövzunun əsas özəyidir. Öncəliklə, praktik psixoloqla tanış olaq. Praktik psixoloqun vəzifələri şagirdlərin təlim və tərbiyə sahəsindəki çətinlikləri, onların şəxsi və intellektual inkişafındakı qüsurları aradan qaldırmaqla təlim-tərbiyə sahəsində aparılan işin sə-

mərəliliyinin yüksəldilməsindən, sosial cəhətdən fəal yüksək ideya imkanına malik şəxsiyyətin formalaşmasında pedaqoji kollektivə kömək etməkdən ibarətdir. Cəmiyyətdə psixoloji xidmətin başlıca məqsədi uşaq, yeniyetmə və gənclərin psixoloji sağlamlığını qorumaqla onların təhsil sahəsində müvəffəqiyyətinin artırılmasıdır. Bundan sonra biz praktik psixoloqun əsas fəaliyyət istiqamətləri ilə tanış olmalıyıq. Peşəkar psixoloq əsas fəaliyyət istiqamətlərini dəqiq bilib, səmərəli tətbiq etməlidir. Praktik psixoloqun fəaliyyət istiqaməti, əsasən, dörd yerə bölünür:

1. Psixodiaqnostika.
2. Psixokorreksiya.
3. Psixoloji məsləhət.
4. Psixoprofilaktika [1]

Məktəbdə psixoloji xidmət prosesində əsas yeri **psixodiaqnostika** tutur. Psixodiaqnostikasının əsas üstün cəhətləri ondan ibarətdir ki, psixoloqun köməyi ilə şagirdin əqli və şəxsi imkanları aşkara çıxarılır. Bununla da, şagirdin fəaliyyət və inkişafını idarə etmək asanlaşır. Bu zaman psixoloji işi təşkil edən şəxsdən xüsusi hazırlıq tələb olunur. İşi aparan praktik psixoloq düzgün sual verməyi, psixoloji problemi müəyyənləşdirməyi, lazımi məlumatı əldə etməyi, həmin məlumatı təhlil etməyi və bütün bunların əsasında zəruri nəticəyə gəlməyi bacarmalıdır. Praktik psixoloq aşağıdakı diaqnostik işləri həyata keçirə bilər:

– Şagirdin ayrı-ayrı fənlər üzrə mənimsəyə bilmədiklərinin psixoloji səbəblərini üzə çıxarmaq;

– Şagirdlərin intizamsızlığının psixoloji səbəblərini aşkar etmək;

– Şagirdlərin əqli inkişafının, şəxsiyyətinin və emosional-iradi xüsusiyyətlərinin diaqnostikası;

– Sinifdə şagirdlərarası münasibətlərin pozulma səbəbini aşkar etmək;

– Şagird-müəllim münasibətlərinin pozulma səbəbinin psixoloji diaqnostikası;

– Uşağın məktəbəhazırlığının psixoloji diaqnostikası;

– Şagirdin ibtidai sinifdən yuxarı siniflərə keçməyə hazır olmasının psixoloji diaqnostikası;

– Şagirdin yeniyetməlik dövründən ilk gənclik dövrünə hazırlaşmasının psixoloji diaqnostikası [2].

Əlbəttə ki, bu diaqnostik işləri necə gəldi etmək olmaz. Bunun üçün psixoloqun hazırlığı və bilik səviyyəsi yüksək olmalıdır. Bundan əlavə, psixoloq bir dəfə ilə qərar qəbul etmir. Bəsit və şablon testlərdən istifadə edib yanlış nəticələrlə qarşılaşmamalıdır. Gənc psixoloqlar daha təcrübəli mütəxəssislər ilə əlaqə qurmalı, görəcəyi işin ciddiliyini dərk etməlidirlər. O zaman diaqnostika daha səmərəli və səmərəli alınacaqdır.

Praktik psixoloqun məktəbdə yerinə yetirəcək işlərdən biri də **psixokorreksiyadır**. Praktik psixoloqun məktəbdə işi təkcə diaqnostika ilə bitmir. Problemin səbəbini aşkara çıxarmaqla yanaşı psixoloq həmin problemin aradan qaldırılması üçün iş aparmalıdır. Bundan sonra biz istədiyimiz nəticəni əldə edə bilərik. Praktik psixoloq problemin həlli üçün aşağıda göstərdiyimiz korreksiya işlərini aparmalıdır.

*Şagirdlərin şəxsiyyətində özünü göstərən əqli emosional və iradi xüsusiyyətlərində olan çətinlikləri aradan qaldırmaq;

*Şagirdlərin yaşıdları və yaşlılar ilə münasibətində şəxsiyyətlərarası problemin aradan qaldırılması. [3]

Psixoloqun növbəti fəaliyyəti **psixoloji məsləhət**dir. Məktəbdə psixoloqun müəllim, şagird və valideynlərlə apardığı psixoloji məsləhət önəmli yer tutur. Bu məsləhətlər qrup və ya fərdi şəkildə aparıla bilər.

Psixoloji məsləhətin əsas məqsədi aşkar olunmuş problem və çətinliklərə müvafiq psixoloji yollar göstərməkdir. Praktik psixoloq müəllimlərə aşağıdakı hallarda məsləhət verə bilər:

*Müəllim ilə sinif arasında münaqişə yarandığında;

*Şagirdin maraqlarını aşkara çıxarmaqla bağlı;

*Peşə seçiminə istiqamət verməklə bağlı;

*Şagirdin dərs yükünün mənimsəmədə çətinliyi zamanı;

*Şagirdlə müəllim arasında ünsiyyət çətinliyi zamanı;

*Psixoloqun şagirdlərə psixoloji məsləhəti aşağıdakı hallarda məqsədəuyğundur:

*Həyatda mövqelərinin müyənləşdirmələri üçün;

*Oxumaq və öyrənməkdə yaranan çətinliklər zamanı;

*Yaşıdları və böyüklər ilə normal ünsiyyətin qurulmadığında;

*Özünütərbiyə ətrafındakı psixoloji məsləhətlər;

*Praktik psixoloqun valideynlərə psixoloji məsləhəti:

*Uşağın məktəbə hazırlamanın psixoloji tərəfləri;

*Şagirdin təhsilə marağının artırılması;

*Şagirdin hafizəsinin gücləndirilməsi;

*Uşağın inadkarlığını aradan qadırılması;

*Hövsələsizlik zamanı psixoloji dəstək;

*Uşaqda təcavüzkarlığın aradan qaldırılması [4].

Psixoloqun məktəbdə həyata keçirdiyi **psixoprofilaktik** işlər. Psixoloji araşdırmalar və illərini psixologiya sahəsinə həsr edən alimlərin müşahidələrindən belə bir nəticəyə gəlinir ki, psixoloji problemin həlli onun qarşısını alınmasından dəfələrlə çətindir. Bu da bir daha psixoprofilaktik işlərin əhəmiyyətini sübut edir. Buna görə də psixoloq, müəllim və valideyn şagirdin əqli inkişaf və şəxsiyyətinin formalaşmasında müəyyən qüsurlara, yayınma hallarına səbəb ola biləcək nüansları aşkara çıxarmağa çalışmalı, müvafiq tədbirlər görməlidir. Uşaqda, əsasən, aşağıda qeyd etdiyimiz dövrlərdə nəzarətin güclənməsi və onunla düzgün davranmaq tələb olunur:

*Uşağın ilk məktəbə qədəm qoyduğu dövr;

*İmtahan və tapşırıqların başladığı dövr;

*Yeniyetməliyin başladığı dövr;

*İxtisas seçimi və dövlət imtahanı dövrü və s. [5]

**Psixoloqun etik normaları.** Psixoloji xidmətin təşkilində əsas diqqət edilməli məqamlardan biri praktik psixoloqun etik vəzifələrini bilməsidir. Etik normaları aşağıda göstərildiyi kimi sıralamaq olar: Məxfilik prinsipi; Səriştəlilik prinsipi; Məsuliyyətlilik prinsipi; Etika və hüquqa uyğunluq prinsipi; Psixologiyanın düzgün təbliği prinsipi; Əziyyətçəkənin rifahının nəzərə alınması; Peşəkar əməkdaşlıq prinsipi; Əziyyətçəkənin məlumatlandırılması prinsipi.

**Məxfilik prinsipi:** Psixoloji xidmət zamanı əldə olunan məlumatlar yayıla və digər şəxslərə ötürülə bilməz; Əziyyətçəkənin psixoloji prosedurlarda iştirakı könüllü və şüurlu olmalıdır; Diaqnostika və məsləhətləşmə zamanı üçüncü şəxsin iştirakına əziyyətçəkən özü qərar verməlidir; Şagirdin şəxsı məlumatlarını rəhbərliyə ötürməkdən çəkinməlidir;

**Səriştəlilik prinsipi:** Psixoloq öz bacarığına güvənir və özü üçün sərhədləri müəyyən edir; Psixoloq apardığı proseslərə görə cavabdehdir;

**Məsuliyyətlik prinsipi:** Psixoloq əziyyətçəkən qarşısında məsuliyyət daşıyır; Psixoloq əziyyətçəkənin şəxsi rifahını düşünür; Auditoriya qarşısında işlətdiyi ifadələrə görə məsuliyyət daşıyır; Kütləvi çıxışlar zamanı yoxlanılmamış məlumatlardan istifadə etmir.

**Etika və hüquqa uyğunluq prinsipi:** Psixoloqa rəhbərlik tərəfindən peşə fəaliyyətinə zidd tələblər qoyula bilməz; Psixoloq şəxsi ekspert vəzifəsini qanuna uyğun yerinə yetirə bilər; Qüvvədə olan qanunlara uyqun işin təşkil edilməsi.

**Psixologiyanın düzgün təbliği prinsipi:** Psixoloq digər peşə sahiblərinə psixoloji metodların məzmununu açıqlaya bilməz; Əsassız gözləntilərlə nəticələnən ifadələrdən çəkinməlidir; Psixologiyanın uğur və nailyyətlərini təbliğ etməlidir.

**Əziyyətçəkənin rifahının nəzərə alınması prinsipi:** Psixoloq peşə fəaliyyətində sosial status, yaş, cins, dini baxışlara görə ayrı-seçkilik yarada bilməz; Məktəbdə şagird təhsil prosesinin əsas subyekti sayılır, onun hüquq və maraqları əsas tutulur; Əziyyətçəkənə qarşı xeyirxah və qərəzsiz mövqe tutulmalıdır.

**Peşəkar əməkdaşlıq prinsipi:**

*Psixoloq nəzəri və praktik yanaşmalarından asılı olmayaraq başqa mütəxəssislərin iş prinsipinə hörmətlə yanaşmalıdır;

*Psixoloq əziyyətçəkənin yanında digər həmkarını tənqid edə bilməz;

*Münaqişəli hallar olarsa psixoloq peşəkar birliyə müraciət edə bilər.

**Əziyyətçəkənin məlumatlandırılması prinsipi:**

*Psixoloq əziyyətçəkənə onunla aparılacaq psixoloji işin məqsəd və metodları barəsində məlumat verməlidir;

*16 yaşa çatmayan uşaqlar ilə psixoloji işin təşkilinə valideyn razılıq verməlidir;

*Psixoloq aydın danışıq dilindən istifadə etməlidir;

*Termin və mənası çətin anlaşılan sözlərdən istifadə etməməlidir;

*Psixoloq şagirdin bacarıqlarını müəyyən edib məlumatlandırmalıdır;

*Verilən psixoloji tövsiyələr dəqiq olmalı, edilməsi mümkün olmalıdır.[6]

Biz qismən praktik psixoloqun vəzifə və iş prinsiplərinə nəzər saldıq. Problemlər bölümünə keçmədən əvvəl daha aktual mövzu olan "**Validenylərlə görüş**" haqqındakı biliklərimizi ümumiləşdirək. Valideynlərlə görüş çox zaman psixoloqun çətinliklə üzləşdiyi məqam olur . Psixoloq istəsə də çox vaxt valideynlərlə görüşməyə nail olmur. Bunun üçün daha əlverişli metod **"seminar"** təşkilidir ki, psixoprofilaktika və maarifləndirmə məqsədi ilə aşağıdakı sxemə uyqun olaraq keçirmək məqsədəuyğundur

**Seminarın məqsəd və vəzifələri:**

*Ailə və məktəb münasibətlərini möhkəmləndirmək;

*Şəxslərdə ünsiyyət bacarığının formalaşması;

*Özünüdərk üçün motivasiyalar;

*Anlama və pozitiv düşünmə keyfiyyətlərinin aşılanması.[9]

**Təlimin strukturu:**

*Görüşün aktual problemlərin həllinə yönəlməsi;

*Lazımı biliklərin əldə olunması;

*Bacarıqların formalaşması;

*Emosional sferanın açılması.

**Görüşün mərhələləri:**

*Giriş, iştirakçılar ilə xoş atmosferin qurulmaq lazımdır;

*İştirakçılar həyat təcrübələrini bölüşə bilər;

*Valideynlərə sual verin, danışmaqlarını xahiş edin;

*Uşaqlıq xatirələrinin yada salınmasına kömək edin;

*Müzakirə üçün ümumi mövzular seçin.

**Seminar zamanı praktik işin təşkili:**

*İştirakçıların bacarıqlarının üzə çıxarılması;

*Rollu oyunlar üzrə çalışmalar;

*Cütlük və qruplar ilə işin qurulması;

**Bağlanış hissəsi:**

*Ayrilmadan öncə yorğunluğu aradan qaldırmaq üçün yaxşı bir fon yaratmaq, oyun təşkil etmək olar;

*Növbəti görüşün vaxtını və mövzusunu birlikdə müzakirə etmək olar.

**Valideynlərlə görüşün üstünlükləri:**

*Valideyn məsuliyyətini dərk edə bilir;

*Uşağın inkişafına seminarın təsiri olur;

*Valideynlərdə özgüvən hissinin inkişafı başlayır;

*Valideyn öz qabiliyyətini tanıyır;

*Uşaqlarını dərk etməyə başlayırlar, onu fərd olaraq görürlər;

*Uşağa vaxt ayırırlar, yeni bacarıqlar qazanırlar.

**Praktik psixologiyada mövcud çətinliklər:** [7]

1. Qəbul prosesindəki fənn bölgüsü, tələbənin sonradan qarşılaşdığı çətinliklər;
2. Qəbul zamanı psixoloqlar üçün qabiliyyət imtahanının olmaması;
3. Təhsil müddətində praktikanın azlığı;
4. Məktəbdə işləməyə yeni başlayan psixoloqun uyğunlaşma çətinliyi;
5. Məktəbdə yeni işə başlamış psixoloqun ünsiyyət problemləri;
6. Praktik psixoloq otağının olmaması və ya tələblərə uyğunsuzluğu;
7. Psixoloqun etik kodeksinin tənzimlənməsində hələ ki heç bir qanunun qəbul edilməməsi;
8. İşə yeni başlayan psixoloqun peşə vəzifələrini lazımı şəkildə bilməməsi;
9. Müəllim, valideyn və şagirdlər arasında psixoloji əlaqənin düzgün qurulmaması;
10. Cəmiyyətimizdə psixoloq və psixoloji işin birmənalı qəbul edilməməsi.[8]

Qəbul imtahanı zamanı praktik psixologiya ixtisası üçüncü qrupda olması, qəbula kimi dövrdə şagirdlərin biologiya və digər uyğun fənlərə daha az maraq göstərməsi sonrakı dövrdə ali təhsil ocağında tədris olunan bir çox fənlərin mənimsənilməsində çətinlik yaradır.

Qəbul imtahanı zamanı praktik psixologiya ixtisası üçün əlavə heç bir tələblərin olmaması sonradan tələbələr ixtisasa uyğunlaşmaqda çətinlik çəkirlər. Bir neçə dəfə səsləndirdiyim bu fikrin aktuallığını nəzərə alıb yenidən yazıram. Belə ki, psixologiya sahəsinə gəlmək istəyən bir tələbə, öncəliklə, qabiliyyət xarakterli testlərdən keçməlidir. Fiziki imkanları uyqun olmayan şagird idman və hərbi məktəblərə qəbul ola bilmir. Amma psixoloji travmaları olan, həddindən artıq həssas və digər bu kimi çətinlikləri olan şagirdlər sadəcə "bal" formatında qəbul olurlar. Sonradan bu tələbələr praktik psixoloq kimi formalaşmaqda dəhşətli çətinliklərlə üzləşirlər. Fikrimi daha dəqiq ifadə etmək üçün belə deyə

bilərəm ki, tələbənin bal yığıb qəbul olması onu uğurlu bir psixoloq olmasına kifayət etmir.

Ali təhsil ocaqlarında praktikanın azlığı da gələcəkdə psixoloqun işində böyük çətinliklər yaradır. Yuxarı kurs tələbələri ilə apardığım sorğu nəticəsində belə fikir formalaşır ki, tələbələrin tam əksəriyyəti özünü psixoloqluğa hazır hiss etmir. Düzdü, iki ildir dünyada və ölkəmizdə hökm sürən xəstəliklər səbəbindən tələbələr üçün praktika təşkil olunmur. Amma hazırda məktəblərdə psixoloq işləyən əvvəlki illərin məzunları da eyni problemdən narahatdırlar.

Praktik psixoloq ilk iş ilində yetərli çətinliklərlə üzləşir. Faydalı təlim və seminarlara qoşulmayan, daha təcrübəli psixoloqlardan köməklik istəməyən psixoloqlar dərin problemlərlə üzləşirlər.

Məktəbdə yeni gələn gənc psixoloq özünü sübut edə bilmir, özgüvəni itir, peşə fəaliyyətinə inamsız yanaşır.

Bildiyimiz kimi məktəbdə praktik psixoloqun tələblərə uyğun otağı olmalıdır. Otaqda azı 20-25 oturacaq olması, pəncərələrin mövcudluğu, divar rənglərinin uyğunluğu əsas şərtlərdir. Bundan əlavə psixoloq otağının idman zalından və musiqi otağından aralıda olması vacibdir. Təəssüf hissi ilə deyə bilərik ki, tələblərə uyğun psixoloq otağının olmadığı məktəblər də var.

Praktik psixoloqun etik kodeksi çox təəssüf ki heç bir qanun ilə hələ ki tənzimlənmir. Bu da psixoloqun məsuliyyətinin azalmasına səbəb olur.

Psixoloqlar çox vaxtı iş fəaliyyətindən əvvəl vəzifələri ilə tanış olmurlar. Araşdırmalar aparıb daha peşəkarlıqla seçdikləri sahəyə töhfələr verə bilərlər.

Əsas çətinliklərdən biri də məktəbdə müəllim, valideyn və şagirdlər arasında psixoloji rabitənin olmamasıdır. Araşdırmalarımızdan belə bir fikrə gəlmək olur ki, valideynlərin çoxu psixoloqu tanımır.

Əsas problemlərdən olan cəmiyyətdə psixoloqa və psixoloji işə fikirlərin birmənalı olmamasıdır. Düşüncə tərzinə görə bir çox insanlar psixoloqu "dəli" həkimi kimi qəbul edirlər. Bu kimi səhv düşüncələrdən cəmiyyəti biz psixoloqlar səmərəli seminar və təlimlərlə xilas edə bilərik.

**Təqdim etdiyim məqalə üçün apardığım sorğu və araşdırmalardan bu nəticələrə gəlirəm:**

Problemlərin aktuallığını nəzərə alaraq bu məqalə üçün məktəb rəhbəri, praktik psixoloq, **müəllim, valideyn, şagird və psixologiya ixtisası üzrə təhsil alan tələbələr arasında sorğu apardım.** Verdikləri cavabların müsahiblərimə sonradan çətinliklər yaratmaması üçün anonimliyi qorumağı düzgün hesab edib, nəticələri ümumi şəkildə təqdim edirəm:

*Psixoloji xidmətin əsas mahiyyətinə cəmiyyətimiz tərəfindən düzgün yanaşılmır;

*Psixoloqun işindən şagirdlərin çoxu xəbərsizdir;

*Valideyn psixoloqa etibar etmir, tanımır;

*Rəhbərlik psixoloqun işinin təşkilinə mane olmur;

*Praktik psixoloq məktəbdə əsas çətinlikləri: psixoloq otağı, təməl praktik biliklərin azlığı.

Bu çətinlik və problemlərin siyahısını uzada bilərik. Amma biz gücümüzü bu çətinliklərin aradan qaldırılması üçün sərf etməliyik. Ümid edirəm, araşdırmalarımız mövcud problemlərin aradan qaldırlmasına yol açacaqdır.

**Problemin aktuallığı.** Günümüzdə ən çox müraciət olunan sahədir.

**Problemin elmi yeniliyi.** Atılacaq inamlı addımlar yenilik ola bilər.

**Problemin praktik əhəmiyyəti.** Sağlam cəmiyyət naminə çalışmaq.

**Ədəbiyyat:**

1. Bayramov, Ə.S. Psixologiya / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. -Bakı, -2009.
2. İbrahimova, D. Təhsildə sosial-psixoloji xidmət / D. İbrahimova, S. Nuriyev. -Bakı, -2016.
3. İbrahimov, A. Uşaqlarımızın istedadına diqqətli olaq / A. İbrahimov, Y. Cəfərova. -Bakı, -2000.
4. Qədirov , Ə. Yaş psixologiyası / Ə. Qədirov. -Bakı, -2008.
5. Qippenreyter, Y. Uşaqla necə ünsiyyət saxlamalı / Y. Qippenreyter. -Bakı, -2015.
6. Seyidov, S.İ. Psixologiya / S.İ. Seyidov, M.Ə. Həmzəyev. -Bakı, -2007.
7. Kuçyunas, R. Psixoloji məsləhətin əsasları / R. Kuçyunas. -Bakı, -2010.
8. Yıldırım, B. Duyğusal zeka / B. Yıldırım. -İstanbul, -2015.
9. http://www.tipii.edu.az/az/

**E-mail:**xmensur@mail.ru

**Rəyçi:** *ped.ü.fəls.dok., dos.* **D. Dostuzadə**
**Redaksiyaya daxil olub:**14.06.2021